# Növbəti səyyar görüş-qəbul keçirilmişdir

*İyunun 6-da Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rayonun Tikanlı kənd sakinləri ilə səyyar görüş-qəbulu keçirilmişdir.*

*Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak etmişlər.*





Tədbirdə kənd inzibati ərazi nümayəndəsi Azər Rəfiyev və rayonun xidmət təşkilatlarının rəhbərləri yaşayış məntəqəsinin sosial vəziyyəti haqqında məlumat vermişlər.

Görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan uğurlardan, həmin işlərin fonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bölgəyə göstərdiyi xüsusi diqqət və qayğıdan, eləcə də Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışmışdır.

Sonra kənd sakinləri Qəbələ rayonunda sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlərə görə ölkə başçısı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

Çıxış edən ictimaiyyət nümayəndələri onları narahat edən bir sıra məsələlərin həlli ilə bağlı təkliflər irəli sürmüş, kəndi rayon mərkəzi ilə birləşdirən yolda Bum çayı üzərində körpünün tikilməsini, həmin yolun asfaltlaşdırılmasını, sel sularına qarşı çayın sahilində beton bəndin inşa edilməsini və yaşayış məntəqəsinə qaz xəttinin çəkilməsini xahiş etmişlər.

Səyyar görüş-qəbulda sakinləri narahat edən məsələlərə rayon icra hakimiyyətinin başçısı tərəfindən aydınlıq qətirilərək, onlara müvafiq izahatlar verilmiş, qaldırdıqları məsələlərin bəzilərinin həllinin RİH-nin səlahiyyətləri xaricində olması ilə əlaqədar yenidən müraciət ediləcəyi və nəzarətdə saxlanılacağı bildirilmiş, digər təkliflərin icrası ilə bağlı yerindəcə tapşırıqlar verilmişdir.

**✍ Varis YAQUBOV.**
**İlkin VƏLİZADƏ.**
**"Qəbələ"**

# Məişət zorakılığı cəhalətin nəticəsidir

Bu günlərdə Qəbələ Rayon Polis Şöbəsində Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dəstəyi ilə «Təmiz Dünya» Qadınlara Yardım İctimai Birliyi «Gender əsaslı zorakılıq hallarına qarşı mübarizənin yeni standartları» mövzusunda tədbir keçirib. Tədbirdə rayon icra hakimiyyətinin, polis şöbəsinin, Qəbələ Regional «ASAN Xidmət Mərkəzinin və rayon uşaq və ailələrə dəstək mərkəzinin əməkdaşları iştirak ediblər.




Tədbiri giriş sözü ilə Qəbələ Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Nadir Məmmədov açıb. «Təmiz dünya» Qadınlara Yardım İctimai birliyinin sədri Mehriban Zeynalova gender əsaslı zorakılıq hallarını doğuran səbəblər və onunla mübarizə yolları barədə geniş məlumat verib. Tədbirin xeyli hissəsi diskussiya və sual-cavab formasında keçmişdir.



Maraqlı keçən tədbiri rayon polis şöbəsinin rəisi Nadir Məmmədov yekunlaşdırıb. Rəis məsələnin çox aktual olduğunu bildirmiş və tədbirin keçirilməsinə görə ictimai birliyin sədri Mehriban Zeynalovaya təşəkkür etmişdir. Cənab Nadir Məmmədov bildirmişdir ki, ictimai mövqeyindən asılı olmayaraq söz-söhbət hər bir ailədə ola bilər. Əsas məqsəd bu söz-söhbətin münaqişəyə çevrilməsinə yol verməməkdir. Bu sahədə ağsaqqalların məktəblərin, valideynlərin, dövlət təşkilatları və ictimai birliklərin üzərinə böyük vəzifə düşür. Valideynlər yeni evlənmiş övladlarını taleyin hökmünə buraxmalı deyil, onlara daim mənəvi dəstək olmalı, düz yol göstərməlidir Məktəb şagirdlərə savad verməklə yanaşı onları gələcək həyata da hazırlamalıdır. Polis rəisi qeyd etdi ki, məişət zorakılığı bütün hallarda savadsızlıqdan və cəhalətdən qaynaqlanır. Ona görə də bu hallara qarşı hamılıqla mübarizə aparmalıyıq. Ailə dövlətin əsasıdır, onun möhkəmliyinə çalışmaq hamının vəzifəsidir.

**✍ Qüdrət SƏMƏDOV.**
**İlkin VƏLİZADƏ.**
**«Qəbələ»**

# Xeyirxah missiya

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qəbələ Rayon Bölməsi xeyirxah bir missiyanı həyata keçirir.

Könüllülərin yardımı ilə fəaliyyət göstərən cəmiyyət xeyriyyəçilik layihələri və aksiyaları təşkil edir, aztəminatlı, ehtiyacı olan insanlara yardımlar edir.

1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə cəmiyyət tərəfindən belə ailələrin 15 nəfər uşağına yeni paltar dəstləri alınaraq paylanmışdır.

Həmçinin Beynəlxalq Əlillər Günü münasibəti ilə fiziki qüsuru olan 30 nəfərə də yeni paltar dəstləri alınaraq verilmişdir.

Bölmə humanitar yardımların və imkanlı insanların ianələri hesabına müntəzəm olaraq aztəminatlı ailələrə imkan daxilində yardımlar göstrir, onların qayğıları ilə məşğul olur.

**✍ Şərqiyə ƏMRAHOVA,**
**bölmənin əməkdaşı.**
**İlkin VƏLİZADƏ.**

# Milli qurtuluşumuzun zəfər yürüşü

***Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu.***

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini elan etdi. Təəssüf ki, müstəqilliyin ilk illərində dövlətin idarəçilik sükanı arxasında xalqın qüvvələrini bir yerə cəmləşdirə biləcək qüdrətli bir lider yox idi. Nəticədə 1993-cü ilin ortalarına doğru hakimiyyət böhranı getdikcə daha kəskin xarakter alırdı. Bu dövrdə hakimiyyətdə olan qüvvələr öz səriştəsiz əməlləri ilə Azərbaycanın müstəqilliyi üçün təhlükə yaratdılar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Həmin dövrdə Azərbaycan ərazilərinin davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin günbəgün ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi.

1993-cü ilin iyununda xalqın xahiş və tələbi ilə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynamışdır. 1993-cü ildə "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrilmişdir.

**(Ardı 4-cü səhifədə).**